

# Qarabağın böyük zəfərdən başlayan yeni növrağı

***Azərbaycan Ordusu 2020-ci il noyabrın 10-da Vətən müharibəsini tarixi qələbə ilə başa çatdıraraq düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi. Üçtərəfli bəyanatın şərtlərinə əsasən noyabr ayının 20-də Ağdam hərbi əməliyyat keçirilmədən, siyasi yolla işğaldan azad edilərək Azərbaycanın yurisdiksiyasına qaytarıldı. Bundan sonra isə əsas diqqət rayonun düşməndən təmizlənən ərazilərinin bərpasına yönəldi.***

Prezident İlham Əliyev ötən il mayın 28-də Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə erməni vandalizminin qurbanı olan Ağdam şəhərində aparılacaq bərpa-quruculuq layihələri nəticəsində burada yüksək sosial şərait yaradılacağını da diqqətə çatdırdı: “Bu gün sizə təqdim ediləcək Ağdam şəhərinin Baş planı bu sözümün təsdiqidir. Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır”.

Həmin gün dövlətimizin başçısının Ağdama səfəri çərçivəsində şəhərin Baş Planının hazır olması ilə artıq bərpa-quruculuq layihələrinin reallaşdırılmasına start verildi. Bərdə-Ağdam avtomobil yolunun, Ağdam şəhərinin bərpasının təməl daşının, şəhərdə inşa olunacaq ilk yaşayış binasının, 1 saylı məktəbin, sənaye parkının təməli qoyuldu.

Prezident İlham Əliyevə səfər çərçivəsində Ağdamda Zəfər və açıq hava altında işğal muzeylərinin yaradılacağı barədə verilən məlumat da diqqət çəkdi. İtaliya şirkəti tərəfindən hazırlanan muzeylər kompleksinin konsepsiyasında əsas məqsədin 30 illik işğal dövründə Azərbaycan xalqının keçdiyi çox çətin yolu göstərmək, erməni vandailizminin dəhşətlərini, silahlı qüvvələrimizin qəhrəmanlığını nümayiş etdirmək olduğu bildirildi.

**(ardı 4-cü səhifədə)**

# Qarabağın böyük zəfərdən başlayan yeni növrağı

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevə səfər çərçivəsində Ağdamda Zəfər və açıq hava altında İşğal muzeylərinin yaradılacağı barədə verilən məlumat da diqqət çəkdi. İtaliya şirkəti tərəfindən hazırlanan muzeylər kompleksinin konsepsiyasında əsas məqsədin 30 illik işğal dövründə Azərbaycan xalqının keçdiyi çox çətin yolu göstərmək, erməni vandalizminin dəhşətlərini, silahlı qüvvələrimizin qəhrəmanlığını nümayiş etdirmək olduğu bildirildi.

Ötən müddətdə Ağdamda görülən bərpa-quruculuq işləri genişmiqyaslı olması ilə diqqət çəkir. Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olduqdan sonra etdiyi çıxışında da bildirib ki, Ağdamın bərpası ilə bağlı kompleks tədbirlər görülməsi rayonun qısa müddət ərzində yenidən qurulmasını şərtləndirir. Səfər çərçivəsində bir neçə təməlqoyma mərasiminin, bu istiqamətdə digər addımların atılması da bunun bariz ifadəsidir: "Bu gün Ağdam şəhərində sənaye parkının ilk rezidentləri tərəfindən yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrin təməl daşı qoyuldu. Sənaye parkının təməl daşını mən keçən dəfə Ağdamda qoymuşdum, Müstəqillik Günündə qoymuşdum. Bu gün isə artıq ilk müəssisələrin təməli qoyuldu. Artıq 5 rezident vardır və onlar işə başlayırlar. Beləliklə, 190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir..."



Xatırladaq ki, dövlətimizin başçısı Ağdama səfər çərçivəsində burada Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması respublikamızda hazırda geniş miqyas alan sənayeləşdirmə siyasətinin Qarabağın bərpasında da xüsusi yer tutmasının bariz ifadəsidir. Çünki bu sahənin sənayenin qeyri-neft sektorunun bölgədə inkişafı həm düşməndən təmizlənən ərazilərin canlandırılmasını sürətləndirir, həm də yeni iş yerlərinin yaradılmasını, burada məskunlaşan əhalinin məşğulluğunun təmin olunmasını şərtləndirir.

Onu da qeyd edək ki, qeyri-neft sektorunun inkişafına mühüm töhfə verən sənaye parklarında sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlərin tətbiqinə üstünlük verilib. Hazırda Azərbaycanda fəaliyyət göstərən 5 sənaye parkının – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parklarının sırasına dövlətimizin başçısının 2021-ci il 28 may tarixli müvafiq fərmanına əsasən Ağdam, 4 oktyabr tarixli fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının da adları əlavə edilib. Beləliklə, respublikada bu cür qeyri-neft sənaye mərkəzlərinin sayı 7-yə çatdırılıb.

Regionların, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafında sənaye məhəllələri də əhəmiyyətli rol oynayır. Bu gün ölkəmizdə 5 sənaye məhəlləsi – Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir.

İndiyədək rezidentlik statusu verilən 90 sahibkarlıq subyektinin 58-i istehsal fəaliyyətinə başlayıb. Həyata keçirilən islahatlar nəticəsində sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunub. Ötən il 2,4 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 15,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə xüsusi çəkisi 30,8 faiz (959,3 milyon manatlıq ixrac) təşkil edib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilir.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı respublikamızın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. düşməndən təmizlənən ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.



Görülən bütün bu işlər Ağdam Sənaye Parkında yaradılan müəssisələrin yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcəyi əminliyi yaradır. Bütün bunlarla bərabər, həm də yeni iş yerlərinin açılmasını, məşğulluğun təmin olunmasını şərtləndirir. Prezident İlham Əliyev Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olduqdan sonra etdiyi çıxışında da bu barədə deyir: "Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır".

Dövlətimizin başçısı çıxışında da iş adamlarına da Ağdama, eləcə də azad edilmiş bütün digər ərazilərə sərmayə qoymalarına çağırış edib. Ölkə rəhbəri Azərbaycanda hazırda sahibkarlar üçün əlverişli investisiya mühiti yaradıldığını, bölgələrdə infrastruktur layihələrinin icrasının özəl bölməyə geniş meydan açdığını, dövlətin sahibkarlara həm mənəvi siyasi dəstək verdiyini, həm də güzəştli kreditlərlə təmin etdiyini bildirib.

Prezident İlham Əliyev çıxışında Ağdamın sürətli bərpasından danışarkən, bu səfər çərçivəsində iki yarımstansiyanın işə salındığını, mehmanxana, mərkəzi şəhər xəstəxanası və yaşayış kompleksinin təməlinin qoyulduğunu, bununla da düşməndən təmizlənən bu ərazinin hərtərəfli inkişafına zəmin yarandığını vurğulayıb.

Dövlətimizin başçısı Ağdamın inkişafı üçün kompleks tədbirlərin bundan sonra da sürətlə davam etdiriləcəyini, hazırda qaz xətlərinin çəkilişi layihəsi üzərində iş aparıldığını, bura içməli suyun gətirilməsi, o cümlədən, Xaçınçay su anbarının təmiri layihəsinin builki İnvestisiya Proqramında öz ifadəsinin tapdığını da diqqətə çatdırıb.

Ağdamın yol-nəqliyyat infrastrukturu da tamamilə yenidən qurulur. Bərdə–Ağdam avtomobil və dəmir yolu inşa edilir. Avtomobil yolunun təqribən bir ilə hazır olacağı gözlənilir. Bundan başqa, dövlətimizin başçısının göstərişi ilə Füzuli–Ağdam avtomobil yolunun çəkilişi layihəsi də artıq icra edilir. Bu yolun həm Füzuli və Ağdam şəhərlərini, həm də Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcəyi nəzərdə tutulur.

Prezident İlham Əliyev çıxışında bildirib: "Ağdamda həyata keçirilən layihələr onu göstərir ki, biz tarixi zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bütün bu işləri biz özümüz görürük, öz vəsaitimiz hesabına, büdcəmiz hesabına, heç kimdən yardım istəmədən, heç bir kredit almadan. Bunu Azərbaycan vətəndaşları edir. Əlbəttə ki, müxtəlif xarici şirkətlər artıq bu işlərdə fəal iştirak edirlər. Bu şirkətlərin sayı artmaqdadır. Mən çox şadam ki, həm yerli şirkətlər, həm xarici şirkətlər azad edilmiş torpaqlarda işləməyə can atırlar, maraq göstərirlər və biz bunu alqışlayırıq".

Bütün bunlar onu göstərir ki, Qarabağın bərpası ilə bağlı qarşıda icra ediləcək genişmiqyaslı layihələr var. Bu işləri maksimum səmərə ilə və keyfiyyətlə həyata keçirmək üçün, əlbəttə, düşünülmüş strategiyanın mövcudluğu zəruridir. Buna görə də bütün şəhərlərin Baş plan əsasında yenidən qurulması nəzərdə tutulur. Artıq Ağdam və Füzulinin Baş planları hazırdır və müəyyən layihələr bu əsasda icra edilir. Bu gün yerli və xarici şirkətlər tərəfindən digər şəhərlərin də Baş planları işlənilir. Onlar hazır olan kimi praktiki işlərə başlanılacağı nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzurda Azərbaycanın tarixi, dini abidələrinin bərpası da quruculuq işləri ilə paralel şəkildə aparılır. Dövlətimizin başçısının çıxışında vurğulandığı kimi, artıq Ağdam Cümə məscidinin bərpa işlərinə başlanılır.

Xatırladaq ki, Ağdam Cümə məscidində tədqiqat işi aparılıb və mart ayından başlayaraq məscidin həm daxilində, həm çöl hissəsində təmir-bərpa işlərinə start veriləcək.

Azad edilmiş torpaqlarda hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisinin icrası nəzərdə tutulur. Bütün bu istiqamətlər üzrə artıq işlər gedir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscid inşa olunur. Zəngilan şəhəri, Hadrut və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisi də uğurla reallaşdırılır. Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, fondun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Prezident İlham Əliyevin çıxışında bu barədə dedikləri xüsusi diqqət çəkir: "Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu. Beləliklə, Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Mən müharibədən sonra Ağdama 3-cü dəfədir ki, səfər edirəm. Hər dəfə buraya gələndə ürəyim ağrıyır. Çünki Ağdamda bir dənə də olsun salamat bina yoxdur. Təkcə bu yarıdağılmış məsciddir ki, onun da dam örtüyü zədələnmişdir. Bu məscid ermənilər tərəfindən təhqir edilib, burada inəklər, donuzlar saxlanılıb".



İşğal dövründə erməni faşizmi Qarabağ və Şərqi Zəngəzurda, eləcə də Ağdamda genişmiqyaslı vəhşiliklər törədib. Şəhər Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu zaman erməni faşistləri şəhərin İmarət qəbiristanlığında Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı görkəmli şairə Xurşidbanu Natəvanın məqbərəsinə qarşı vəhşilik əməlləri törədiblər, onun dəfn edildiyi məzar tamamilə dağıdılıb, sümükləri qəbrindən çıxarılaraq aparılıb. Yeri gəlmişkən, xatırladaq ki, Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın Ağdamdakı sarayı da vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən həmin sarayda inək və donuz saxlanılıb. Erməni barbarları, həmçinin İbrahimxəlil xanın türbəsini də məhv ediblər. Ermənilər xislətlərinə uyğun olaraq, Ağdamdakı Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar. Bununla yanaşı, Şahbulaq qalasını erməniləşdirməyə çalışsalar da, buna nail ola bilməyiblər. Cümə məscidində isə mal-qara və donuz saxlamaqla, İslam dinini təhqir ediblər.

Ermənilərin yaşayış məntəqələrimizə, maddi-mədəni abidələrimizə düşmən münasibəti, insanlığa bir araya sığmayan vəhşi əməlləri təkcə Ağdam şəhəri ilə bitmir. İşğalçı Dağlıq Qarabağ və ətraf rayonların demək olar ki, hər qarışını xarabalığa çevirib, təbii sərvətlərimizi talan edib, maddi-mədəni irsimizi dağıdıb, hətta təhqir etməkdən belə çəkinməyib.

Əslində, beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilən bu əməllər bütün dünya mədəniyyətinə qarşı təcavüzdür. Çünki talan və məhv edilən dəyərlər nəinki ölkəmizin, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*